**Minister of Foreign Affairs**
**of the Republic of Azerbaijan**

50 Shikhali Gurbanov str., Baku, AZ1009, Azerbaijan
Tel.: (+99412) 596 90 00, Fax: (+99412) 596 90 01

www.mfa.gov.az
E-mail: katiblik@mfa.gov.az

«07» 09 2022 №

**Zati-aliləri,**

Azərbaycan Respublikası və Yaponiya arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibəti ilə Sizi təbrik edir, dost yapon xalqına ən xoş və səmimi arzularımı çatdırıram.

Son 30 ildə qədim mədəniyyətə və zəngin tarixi irsə malik olan ölkələrimiz arasında qarşılıqlı anlaşmaya əsaslanan dostluq münasibətləri rəngarəng və dinamik xarakter alıb.

İkitərəfli münasibətlərin çoxşaxəli və dinamik şəkildə inkişaf etməsi müxtəlif sahələrdə əldə edilmiş mühüm nəticələrə zəmin hazırlamaqla yanaşı, ölkələrimiz arasında siyası etimadı möhkəmləndirilmiş, regional və beynəlxalq paltformalarda qarşılıqlı maraqlara cavab verən əməkdaşlıq əlaqələrinin həyata keçirilməsini təmin etmişdir.

Vurğulamaq istərdim ki, əməkdaşlığımızın inkişaf etdirilməsi istiqamətində birgə səylərimiz, o cümlədən sosial, iqtisadi, humanitar və digər sahələrdə həyata keçirilən layihələr münasibətlərimizin daha da möhkəmlənməsinə təkan verməkdədir.

Yaponiya şirkətlərinin Azərbaycanın enerji və qeyri-neft sektoruna sərmayə yatırmaları təqdirəlayiq hal olmaqla yanaşı, onların işğaldan azad olunmuş ərazilərimizin bərpası və yenidən qurulmasında iştirak etməsi Azərbaycan və Yaponiya arasında qarşılıqlı inamın və əməkdaşlığın güclənməsinə ciddi töhfə verəcəyinə əminəm.

Onu da qeyd etmək yerinə düşər ki, Azərbaycan və Yaponiya Xarici İşlər Nazirlikləri arasında 2022-ci iyulun 4-də Bakıda keçirilmiş siyasi məsləhətləşmələr də ikitərəfli münasibətlərin möhkəmlənməsinə xidmət edəcək.

İkitərəfli və çoxtərəfli müstəvidə yüksək etimada və qarşılıqlı dəstəyə əsaslanan ənənəvi əməkdaşlıq əlaqələrimizin daha da inkişaf edəcəyinə əmin olduğumu bildirir və fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, dost yapon xalqına sülh və tərəqqi arzulayıram.

Dərin **Hörmətlə,**

**Ceyhun Bayramov**

**Yaponiya xarici işlər naziri**
**cənab Yoşimasa Hayaşi**